AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025

Kitabın məzmunu "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Xəlilli, Fariz. (Hazırlayan). (2025). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. Bakı: AFPoliqrAF.

16-25 iyul 2025-ci il tarixlərində "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi ilk dərslərinə başlamışdır. Dərslər müxtəlif mədəni irs mövzularında olub, Azərbaycan, Türkiyə, İtaliya irs mütəxəssisləri tərəfindən aparılmışdır. Təlimçilərin mühazirələri tədris vəsaiti şəklində nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Qafar Cəbiyev
Rəyçilər: Prof.Dr. Kübra Əliyeva
Prof.Dr. Şikar Qasımov

Tərcümə: Fariz Xəlilli
Dizayn: İntiqam Məhəmmədli
Koordinator: Məleykə Hüseynova
Fotolar: Nicat Nağızadə, Fariz Xəlilli, Elmira Abbasova, Fidan Xəlilli, Fərid Xəlilli

ISBN: 978-9952-8561-2-5

© "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2025

# MÜNDƏRİCAT

Prof.Dr. Qafar Cəbiyev - MƏDƏNİ İRS USTAD MƏKTƏBİ KURSUNA GİRİŞ VƏ YA MƏDƏNİ İRSİN TƏDQİQİ, QORUNMASI VƏ TƏŞVİQİ İSTİQAMƏTİNDƏ PRİORİTETLƏR: ƏNƏNƏVİ YANAŞMALAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 6
https://doi.org/10.30546/978-9952.2025.1006

Prof.Dr. Luici Skrinzi - ZƏRGƏRPALAN HAMAMI: BEYNƏLXALQ TƏDQİQAT VƏ KONSERVASİYA MİSSİYASI ........ 18
https://doi.org/10.30546/978-9952.2025.1018

Dr. Fariz Xəlilli - MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ........ 25
https://doi.org/10.30546/978-9952.2025.1025

Məleykə Hüseynova - MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ ........ 43
https://doi.org/10.30546/978-9952.2025.1043

Dos.Dr. Günel Seyidəhmədli - AZƏRBAYCANIN TARİX-MƏDƏNİYYƏT QORUQLARI ........ 65
https://doi.org/10.30546/978-9952.2025.1065

Prof.Dr. Şikar Qasımov - AZƏRBAYCANIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ VƏ ONUN YUNESKO-DAKI YERİ ........ 87
https://doi.org/10.30546/978-9952.2025.1087

Dos.Dr. Pərvin Ahənçi - TARİXİ-MƏDƏNİ İRSİN RƏQƏMSALLAŞDIRILMASI ........ 103
https://doi.org/10.30546/978-9952.2025.1103

Dos.Dr. Həbibə Əliyeva - MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR ........ 129
https://doi.org/10.30546/978-9952.2025.1129

Dr. Şəhla Xəlilli - DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ ........ 142
https://doi.org/10.30546/978-9952.2025.1142

Dr. Nəzmin Cəfərova - MUZEYLƏR MƏDƏNİ İRSİN KEŞİYİNDƏ ........ 154
https://doi.org/10.30546/978-9952.2025.1154

Gülşən Hüseynova - FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ ........ 185
https://doi.org/10.30546/978-9952.2025.1185

Arzu Həsənli - MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ ........ 205
https://doi.org/10.30546/978-9952.2025.1205

Aidə Məlikova - MƏDƏNİ İRS TURİZMİ ........ 211
https://doi.org/10.30546/978-9952.2025.1211

Prof.Dr. Zahidə Məmmədova, Dos.Dr. Məhəmməd Nurməmmədov - MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI VƏ KONSERVASİYASI ........ 224
https://doi.org/10.30546/978-9952.2025.1224

Cəlaləddin Küçük, Nadirə Minə Yar - BƏRPA VƏ KONSERVASİYADA MATERİALLAR ........ 246
https://doi.org/10.30546/978-9952.2025.1246

Əfqan Quliyev - BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR ........ 259
https://doi.org/10.30546/978-9952.2025.1259

Prof.Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Dr. Elmira Abbasova - Bakı şəhəri Yasamal rayonu Həmidağa Hüseynzadə küçəsində yerləşən Hamam binası daxilində və ətrafında konservasiya və təmizləmə işləri çərçivəsində aparılan arxeoloji tədqiqatların HESABATI ........ 263
https://doi.org/10.30546/978-9952.2025.1248

# MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ

Arzu Həsənli
Tədqiqatçı
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi "Azərbaycan məktəbi" jurnalı
https://doi.org/10.30546/978-9952.2025.1205

**Giriş.** Mədəni irsin sosiallaşması anlayışı mədəni dəyərlərin, ənənələrin, dil və biliklərin fərdlər və cəmiyyət üzvləri arasında paylaşılması, nəsildən nəslə ötürülməsi və yaşadılması prosesini ifadə edir. Bu proses sayəsində mədəni irs həm qorunur, həm də yeni formalar alaraq inkişaf edir. Belə bir sosiallaşma prosesi fərdin cəmiyyətə inteqrasiyasında və milli kimliyin formalaşmasında əsas rol oynayır. Eyni zamanda, mədəni irsin sosiallaşması cəmiyyətin davamlı inkişafı və mədəni müxtəlifliyin qorunması baxımından da əhəmiyyətlidir.

Mədəni irsin qorunması və onun sosiallaşması, xüsusilə müasir dövrdə texnologiyanın sürətli inkişafı və qloballaşmanın təsiri altında daha vacib bir sahəyə çevrilib. Mədəni irsin sosiallaşması olmadan, cəmiyyətlər öz köklərindən uzaqlaşa bilər və milli mənsubiyyət zəifləyə bilər. Bu səbəbdən, mədəni irsin sosiallaşmasının tədqiqi və təşviqi müasir elmin və dövlət siyasətinin əhəmiyyətli sahələrindən biridir.

Bu, mədəniyyətin qorunması və inkişafında əvəzolunmaz vasitədir. UNESCO-nun 2019-cu il hesabatına görə, dünya üzrə mədəni irsin 40%-i qeyri-maddi irs kateqoriyasına daxil edilir və onun sosiallaşması milli kimliyin qorunması üçün həyati əhəmiyyət daşıyır.

**Mədəni irsin sosiallaşması prosesləri.** Mədəni irsin sosiallaşması çoxpilləli prosesdir və müxtəlif səviyyələrdə baş verir. Bu prosesdə ailə, məktəb, icma və geniş ictimaiyyət müxtəlif funksiyalar yerinə yetirir:

**Ailə sosiallaşması:** İnsanın həyatındakı ilk və ən vacib sosiallaşma növüdür. Burada mədəni irsin ilkin dəyərləri, adət-ənənələri və dil öyrədilir. Ailə sosiallaşması fərdin mədəni kimliyinin əsasını təşkil edir. Məsələn, Azərbaycanda ailələr milli bayramları, adət-ənənələri və xalq mədəniyyətini yeni nəsillərə ötürürlər. Azərbaycanda, məsələn, Novruz bayramı kimi milli ənənələr ailə daxilində öyrədilir. 2021-ci ilin sorğularına əsasən, respondentlərin 78%-i bayram ənənələrinin ailə mühitində öyrədildiyini bildirib.

**Məktəb sosiallaşması:** Məktəb sosiallaşmasının rolu həm akademik biliklərin verilməsi, həm də milli-mədəni dəyərlərin tədrisi baxımından əhəmiyyətlidir. Təhsil müəssisələri milli tarix, ədəbiyyat, incəsənət və digər mədəni sahələri tədris etməklə gənclərin kimlik hissini möhkəmləndirir və sosial məsuliyyət duyğusunu artırır. Azərbaycanda məktəblərdə tarix, ədəbiyyat kimi dərslərdə şagirdlər milli irsə aid mövzuları öyrənirlər. Bu da onların milli kimliklərinin formalaşmasında mühüm rol oynayır.

**İcma sosiallaşması:** İcma və yerli cəmiyyətlər mədəni irsin yaşadılması və paylaşılmasında mühüm rol oynayır. Mədəni tədbirlər, bayramlar, folklor festivalları, sənət və musiqi yaradıcılığı

icma sosiallaşmasının əsas vasitələridir. Bu proseslər cəmiyyətdə birlik hissini artırır və mədəni irsin canlı qalmasını təmin edir. Məsələn, Qəbələ şəhərində hər il keçirilən musiqi festivallarında yüzlərlə insan iştirak edir. Festival zamanı xalq rəqsləri, musiqi ifaları və ənənəvi sənətkarlıq nümayiş olunur, bu da mədəni irsin yaşadılmasına və gənc nəsilə ötürülməsinə xidmət edir. Bu istiqamətdə dövlət qurumları ilə yanaşı, ictimai təşkilatlar da fəallıq nümayiş etdirirlər. Xüsusilə, “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin həyata keçirdiyi layihələr, konfranslar, festivallar, sərgilər, turlar və s. mədəni irsin sosiallaşmasına böyük töhfə verir.

**Mədəni irsin sosiallaşmasının ölçülməsi.** Mədəni irsin sosiallaşmasının effektivliyini ölçmək üçün müxtəlif metod və vasitələr mövcuddur. Bunlara sorğular, müşahidələr, mədəni tədbirlərin iştirakçı sayı, təhsil proqramlarının nəticələri və s. daxildir. Bu ölçülər mədəni sosiallaşmanın gücləndirilməsi üçün strateji addımlar atmağa imkan verir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, dövlət qurumları ilə yanaşı müxtəlif ictimai təşkilatlar da müntəzəm olaraq bu istiqamətdə səmərəli addımlar atırlar.

**Sosiallaşma növləri və mədəni irsin nəsildən nəslə ötürülməsi.** Sosiallaşma ilkin və sonrakı dövrlərdən ibarətdir. İlkin sosiallaşma uşağın ailə və yaxın mühitində baş verir və mədəni irsin əsasını təşkil edir. Sonrakı sosiallaşma isə məktəb, dost mühiti, media və geniş ictimaiyyət vasitəsilə davam edir.

Müasir dövrdə sosiallaşma çoxşaxəli xarakter daşıyır. İnternet, sosial şəbəkələr, kütləvi informasiya vasitələri mədəni irsin qorunması və yayılması üçün yeni imkanlar yaratmaqla yanaşı, bəzi hallarda ənənəvi dəyərlərin itirilməsinə də səbəb ola bilər. Buna görə də, sosiallaşma prosesində həm ənənəvi, həm də müasir vasitələrin balanslı şəkildə istifadə edilməsi vacibdir.

Nəsildən nəslə ötürülmə mədəni irsin davamlılığının təminatıdır. Zəngin mədəni irsə malik olan Azərbaycanda bu proses milli kimliyin qorunması və inkişafı üçün həyati əhəmiyyət daşıyır.

Müasir dövrdə rəqəmsal texnologiyalar və sosial media mədəni irsin yayılması istiqamətində yeni imkanlar açır. Virtual muzeylər, məlumat bazaları, youtube kanalları və s. bunlara misal göstərilə bilər.

**Mədəni irsin növləri və məsuliyyət.** Mədəni irs maddi (tarixi abidələr, memarlıq nümunələri, sənət əsərləri) və qeyri-maddi (dil, folklor, adət-ənənələr, musiqi) olmaqla iki əsas hissəyə ayrılır. Hər iki növün qorunması cəmiyyətin ümumi məsuliyyətidir. Dövlət orqanları qanunvericilik və proqramlar vasitəsilə bu sahəni tənzimləyir, lakin fərdi və icma səviyyəsində də iştirak vacibdir.

Azərbaycanda mədəni irsin sosiallaşması üzrə aparılan araşdırmalar göstərir ki, xüsusilə gənclər arasında milli dəyərlərə marağın artırılması və maarifləndirmə tədbirlərinin genişləndirilməsi zəruridir. İcma və mədəniyyət təşkilatlarının fəaliyyəti bu baxımdan önəm daşıyır.

Maddi irsə misal olaraq, Azərbaycan ərazisindəki bir sıra tarixi abidələri, o cümlədən Şəki Xan sarayını və Qobustan qayaüstü rəsmlərini göstərmək olar. Qeyri-maddi irsə isə muğam və Novruz bayramı və s. aid edilir. UNESCO tərəfindən 2008-ci ildə qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş muğam Azərbaycanın milli fəxridir.

Dövlətin və cəmiyyətin məsuliyyəti müxtəlif proqramların gerçəkləşdirilməsində, icma səviyyəsində də layihələrdə öz əksini tapır.

**Azərbaycan Qanunvericiliyində mədəni irs.** Azərbaycanda mədəni irsin qorunması sahəsində kompleks qanunvericilik bazası mövcuddur. Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur. Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir.

Mədəniyyət Nazirliyi və digər dövlət orqanları tərəfindən qeyri-maddi irsin qorunması ilə bağlı proqramlar həyata keçirilir. Bunlar arasında milli dilin qorunması, xalq sənətkarlığının dəstəklənməsi, tarix və mədəni abidələrin bərpası prioritet sahələrdəndir. Bildiyimiz kimi, abidələr dünya, ölkə və yerli əhəmiyyətli abidələrə bölünür.

Abidələrin qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunundan, "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. "Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi" QAYDASI da təsdiq olunub.

Azərbaycan "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Konvensiyaya, UNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasına qoşulub.

Venesiya Xartiyası və ya rəsmi adı ilə "Abidələr və Tarixi Yerlərin Konservasiyası və Bərpası üzrə Beynəlxalq Xartiya" da Azərbaycan dilinə tərcümə olunub. Mədəni irsin konservasiyası və bərpası kimi mühüm anlayışları özündə əks etdirən bu sənəd 1964-cü ildə İtaliyanın Venesiya şəhərində keçirilən "Tarixi irs mütəxəssislərinin və memarların 2-ci beynəlxalq konqresi" çərçivəsində qəbul edilib.. Xartiyanın hazırlanmasında əsas məqsəd tarixi abidələrin və irs ərazilərinin müdafiəsi və bərpasını nəzərdə tutan prinsip və qaydaları müəyyən etmək, həmçinin konservasiya işləri zamanı tarixi yerlərin autentikliyi, bütövlüyü və mədəni dəyərinin tam qorunub saxlanılmasının əhəmiyyətini vurğulamaqdır.

UNESCO ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın mədəni irsin qorunması sahəsində beynəlxalq standartlara uyğun təcrübələr tətbiq olunur. Dövlət və beynəlxalq səviyyədə qəbul olunmuş müqavilələr mədəni irsin qloballaşan dünyada qorunması və tanıdılması üçün əlavə imkanlar yaradır.

Azərbaycanın Mədəni İrsin Qorunması haqqında qanunları mədəni dəyərlərin qorunması və inkişafını təmin edir. 2023-cü ilin hesabatına görə, bu qanunlar çərçivəsində 50-dən çox abidənin bərpası həyata keçirilib. UNESCO ilə əməkdaşlıq nəticəsində bir sıra mədəni irs nümunələrimiz - 24 nümunə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxildir. Bunlardan 22-i «Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı»na, 2 irs isə (Qarabağ atı ilə oynanılan Çövkən atüstü oyunu və Naxçıvanın ənənəvi qrup rəqsləri – yallı, köçəri, tənzərə) "Təcili qorunmağa ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı"na daxil edilib.

**Mədəni irsin sosiallaşması üçün praktik iş planı.** Məqsəd: Mədəni irsin qorunub yaşadılmasını təmin etmək, onu geniş ictimaiyyətə çatdırmaq və cəmiyyətin sosial-mədəni inkişafına töhfə vermək.

1. Təhqiqat və analiz mərhələsi:

- Mədəni irs nümunələrinin inventarizasiyası;

- Yerli mədəniyyət, tarixi abidələr, ənənələr, folklor, musiqi, sənət nümunələrinin siyahısını hazırlamaq;

- Sosial sorğu və statistik təhlil;

- İctimai rəyin öyrənilməsi (nə qədər tanınır, maraq var?);

Mədəni irsin sosiallaşmasının qarşısını alan problemlərin müəyyən edilməsi.

2. Təbliğat və ictimaiyyətlə əlaqə:

- Media kampaniyası;

- Sosial şəbəkələrdə mədəni irsə həsr olunmuş kontent (videolar, məqalələr, podcastlər);

- Yerli və milli media ilə əməkdaşlıq (reportajlar, sənədli filmlər);

- Məktəb və universitetlərdə tədbirlər;

- Mühazirələr, seminarlar, mədəni irs günləri;

- Tələbələr üçün "Mədəni irs səfiri" layihəsi.

3. İnteraktiv tədbirlər və iştirakçılıq:

- Festivallar və sərgilər;

- Ənənəvi sənət nümunələri, xalq rəqsləri, musiqi ifaları;

- Mədəni irsə dair interaktiv emalatxanalar (usta dərsləri);

- Virtual və fiziki ekskursiyalar;

- Muzeylər, tarixi yerlər, arxeoloji abidələr üzrə virtual gəzintilər.

4. Təhsil və innovasiya:

- Mədəni irsin rəqəmsallaşdırılması;

- 3D modelləşdirmə, virtual reallıq tətbiqləri;

- Onlayn arxiv və elektron kitabxana yaradılması;

- Məktəb proqramlarına inteqrasiya;

- Tarix və incəsənət dərslərində xüsusi modullar.

5. İctimai dəstək və hüquqi bazanın möhkəmləndirilməsi:

- Yerli qurumlarla əməkdaşlıq;

- Mədəniyyət Nazirliyi, UNESCO, qeyri-hökumət təşkilatları ilə birgə layihələr;

- Maliyyə mexanizmləri;

- Qrantlar, sponsorluq, ictimai fondlar.

6. Nəticələrin qiymətləndirilməsi:

- Monitorinq və hesabatlar;

- Tədbirlərin effektivliyinin ölçülməsi (iştirakçı sayı, ictimai reaksiya);

- Dəyişikliklər üçün tövsiyələr.

Gözlənilən nəticələr:

- Mədəni irsə marağın artması;

- Gənclərin milli dəyərlərə bağlılığının güclənməsi;

- Turizmin inkişafı və yerli iqtisadiyyata dəstək;

- Unudulmaqda olan ənənələrin canlandırılması.

**“Mədəni irsin sosiallaşması” sessiyası üçün praktik fəaliyyətlər**

1. Tanışlıq məşğələsi. Məqsəd: Mədəni irsin sosiallaşmasına dair bilikləri aktivləşdirmək və qrupu hərəkətə gətirmək. İştirakçılar 2 qrupa bölünür. Birinci qrup dairə şəklində dayanır. İkinci qrup birinci qrupun ətrafında dairə yaradır. Birinci qrupun üzvləri üzlərini ikinci qrupun üzvlərinə tərəf çevirirlər. İştirakçılar özlərini təqdim edib mədəni irsin sosiallaşması ilə bağlı fikirlərini bir-biri ilə paylaşırlar. Aparıcının işarəsi ilə müzakirə dayandırılır və daxildəki qrup sağa doğru bir addım hərəkət edir. Bu dəfə hər bir iştirakçı artıq digər qrupun başqa üzvü ilə mövzunu müzakirə edir. Proses bütün iştirakçılar bir-biri ilə tanış olub mövzunu müzakirə edənə qədər davam edir. Sonra hər bir iştirakçı mövzu ilə bağlı öz fikirlərini və müzakirə zamanı aldığı yeni ideyaları bütün qrupla paylaşır.

2. “Mədəni irs naminə!” beyin həmləsi. Tapşırıq: Sosiallaşma üçün konkret layihə ideyaları yaratmaq. Format: Qrup 3 komandaya bölünür (hər komandada təxminən 5 nəfər). Hər komanda bir problem seçir (məsələn: “Gənclərin ənənəvi sənətlərə marağı itib”, “Tarixi abidələr vandalizmə məruz qalır” və s.). Həll yollarını (sosial media kampaniyası, street art, məktəblərdə master-klaslar) planlayaraq flipçarta yazır. Hər komanda ideyalarını təqdim edir, ümumi səsvermə ilə ən yaxşı 3 ideya seçilir.

3. İnteraktiv iştirak: “Bu sənə nə deyir?” (25 dəqiqə). Məzmun: Mədəni irs nümunələrinə emosional yanaşma. Addımlar: Qrup üzvlərinə Azərbaycan mədəniyyətindən foto/video nümunələr (məsələn: Şəki Xan Sarayı, “Kəsmə” sənəti, Aşıq musiqisi) göstərilir. Hər kəs seçdiyi bir obyekt haqqında 1-2 cümləlik hekayə yazır. İstəyənlər hekayələrini oxuyur, digərləri reaksiya verir.

4. Rol oyunu: “Mədəni irs debatları”. Ssenari: İştirakçılar iki qrupa bölünür: 1-ci qrup: Tarixi bir binanı turizm mərkəzinə çevirmək istəyir. 2-ci qrup: Binanın orijinal formasını qorumaq tərəfdarıdır. Müzakirə: Hər qrup öz arqumentlərini (iqtisadi fayd, mədəni toxunulmazlıq) qurur, sonda hamı üçün uyğun yolu axtarılır.

5. Qrup işi: Mədəni irsin sosiallaşması kampaniyaları. İştirakçılar iki qrupa bölünür: 1-ci qrup öz seçdiyi maddi mədəni irs nümunəsinin sosiallaşması istiqamətində fəaliyyət planı hazırlayır. 2-ci qrup öz seçdiyi qeyri-maddi mədəni irs nümunəsinin sosiallaşması üçün fəaliyyət planı hazırlayır. Sonra hər qrup öz fəaliyyət planını təqdim edir və digər qrupun suallarına cavab verir. Sonda hər bir kampaniya haqqında ekspert rəyi dinlənilə bilər. Nəticə: Əldə olu-

nan bacarıqlar: Komanda işi, kreativlik, mədəni irsə münasibətdə məsuliyyət. Davam etdirmək üçün: Seçilən ideyalardan 1-2-sini həyata keçirmək üçün iş qrupu yaradıla bilər.

**Nəticə.** Mədəni irsin sosial dəyəri və gələcək nəsillər üçün əhəmiyyəti çoxşaxəlidir. Bu proses milli kimliyin formalaşması, cəmiyyətin sosial birliyi və mədəni müxtəlifliyin qorunması üçün əsasdır. Mədəni sosiallaşmanın davamlı olması üçün dövlət, cəmiyyət və fərdlərin birgə səyi tələb olunur.

Gələcəkdə mədəni irsin sosiallaşması sahəsində görüləcək işlər sırasında təhsil proqramlarının zənginləşdirilməsi, innovativ texnologiyaların tətbiqi, ictimai maarifləndirmənin artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi mühüm yer tutmalıdır.

Sosiallaşma proseslərinin təkmilləşdirilməsi üçün aşağıdakı təkliflər irəli sürmək olar:

- Təhsil proqramlarında milli-mədəni mövzuların zənginləşdirilməsi və innovativ metodların tətbiqi.

- Rəqəmsal platformaların istifadəsi ilə mədəni irsin yayılması və gənclərin bu sahəyə cəlb olunması.

- İcma və dövlət səviyyəsində mədəni tədbirlərin artırılması və bu tədbirlərə gənclərin aktiv iştirakının təşviqi.

- Dövlətin mədəni irsin qorunmasına maliyyə dəstəyinin artırılması və qanunvericiliyin təkmilləşdirilməsi.

- Beynəlxalq əməkdaşlığın genişləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi.

Bu addımlar Azərbaycan mədəni irsinin sosiallaşmasını daha effektiv edə, milli dəyərlərin gələcək nəsillərə çatdırılmasını təmin edə bilər.

Göndərildi: 08.08.2025
Qəbul edildi: 22.08.2025
Təqdim etdi: Arzu Həsənli
İstinad: Həsənli, A. (2025). Mədəni irsin sosiallaşması və onun cəmiyyət üçün əhəmiyyəti. F. Xəlilli (Hazırlayan). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. (s. 205-210). Bakı: AFPoliqrAF. https://doi.org/10.30546/978-9952.2025.1205

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025